

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 29 (23.916)

12 fevral 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qobu" Enerji Qovşağının – yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyasının və 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının açılışında iştirak edib. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Prezident İlham Əliyev "Qobu" Enerji Qovşağını işə salıb.

Sonra dövlətimizin başçısı Azərbaycan Dövlət İnformasiya Agentliyinə – AZƏRTAC-a müsahibə verib. Prezident İlham Əliyev müsahibəsində deyib: "Bizim bütün dörd qonşu ölkə ilə dediyim kimi, enerji bağlantıları var, biz indi yeni bir layihə üzərində işləyirik. Zəngəzur dəhlizi ilə Azərbaycandan Naxçıvan Muxtar Respublikasına, oradan isə Türkiyəyə və İrana yeni xəttin çəkilişi indi artıq planlarımızdadır. Mən demişdim ki, Zəngəzur dəhlizi təkcə dəmir yolu, avtomobil yolu, hava nəqliyyatı üçün deyil. Eyni zamanda Zəngəzur dəhlizi enerji növlərinin ixrac edilməsi ilə bağlı öz rolunu oynayacaq. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təmin etmək üçün və oradan xarici bazarlara çıxmaq üçün və Türkiyədən sonra Avropaya çıxmaq üçün yeni bir xəttimiz olacaq. Bir xətt Gürcüstan-Türkiyə üzərindən keçir və ikinci xətt oradan keçməlidir. Biz bunun üzərində işləyirik və artan ixracımız həm önəmimizi artıracaq, geosiyasi önəmimizi artıracaq, eyni zamanda bizə əlavə valyuta gətirəcək. Biz təkcə neftdən, qazdan yox, eyni zamanda elektrik enerjisindən də valyuta qazanacağıq və ölkəmiz daha da firavan yaşayacaq".

## Əhalinin sosial müdafiəsi diqqət mərkəzindədir

***Muxtar respublikada əhalinin sosial müdafiəsi məqsədilə zəruri tədbirlərin həyata keçirilməsi ötən il də uğurla davam etdirilib, bu sahədə qəbul olunmuş Dövlət proqramlarının icrası diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq 2021-ci ildə işaxtaran və işsiz vətəndaşların əmək fəaliyyətinə cəlbi, gənclərin və qadınların məşğulluğunun təmin olunması məqsədilə zəruri işlər davam etdirilib.***

İlin əvvəlində muxtar respublika üzrə əmək bazarı təhlil edilib, həyata keçirilmiş məşğulluq tədbirləri nəticəsində 2972 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunub. Onlardan 758 nəfərini gənclər, 523 nəfərini qadınlar, 76 nəfərini sağlamlıq imkanları məhdud şəxslər, 10 nəfərini isə hərbi xidmətdən yeni tərxis olunan gənclər təşkil edib. Həmçinin ötən il keçirilmiş əmək yarmarkalarında 622 nəfər işlə təmin olunub. Bununla yanaşı, payız-qış mövsümünə hazırlıqla əlaqədar sağlamlıq imkanları məhdud qadınlarla bağlanılan müqavilələr əsasında onlar tərəfindən toxunmuş 2500 cüt yun corab, 1000 ədəd yun boyunluq və 800 ədəd yun jilet haqqı ödənilməklə təhvil alınaraq hərbi hissələrə təqdim edilib. İl ərzində işaxtaran şəxslərin peşə hazırlığına cəlb olunması da diqqət mərkəzində saxlanılıb, 121-i dövlət, 62-si özəl olmaqla, 183 müəssisədə sorğular keçirilib və ümumilikdə, 419 nəfər peşə kurslarına cəlb edilib. Peşə kurslarının təşkili ilə yanaşı, il ərzində 7430 nəfər yuxarı sinif şagirdinə əmək bazarında ən çox tələb olunan peşə və ixtisaslar haqqında məlumatlar verilib.

Eyni zamanda ötən il sosial qayğıya ehtiyacı olan 1566 nəfər ailə üzvünə malik 330 ailənin özünüməşğulluğu təmin edilib. Verilmiş aktivlərdən səmərəli şəkildə istifadə olunmasının stimullaşdırılması məqsədilə nazirlik tərəfindən proqrama cəlb olunmuş ailələrin təsərrüfatlarında monitorinqlər aparılıb, təsərrüfatını nümunəvi inkişaf etdirən vətəndaşların həvəsləndirilməsi məqsədilə onlara öz seçimləri əsasında müxtəlif yardımçı aqreqatlar verilib.

Ötən il qeyri-formal məşğulluğun qarşısının alınması istiqamətində də zəruri işlər görülüb. İl ərzində 29 müəssisədən 73 nümayəndənin iştirakı ilə maarifləndirici seminarlar təşkil olunub. Müvafiq dövr ərzində sahibkarlıq obyektlərində monitorinqlər davam etdirilib, 156 obyektdə 276 işçinin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb olunduğu müəyyən edilərək zəruri tədbirlər görülüb. Eyni zamanda istehsal və tikinti sahələrində işəgötürənlər tərəfindən sağlam sanitariya-gigiyena şəraitinin yaradılmasına, işçilərin fərdi mühafizə vasitələri ilə təmin edilməsi və iş yerlərində əməyin mühafizəsi qaydalarına əməl edilməsinə nəzarət ilə bağlı ötən il muxtar respublika üzrə, ümumilikdə, 83 obyektdə nəzarət tədbirləri həyata keçirilib. Fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 248 işçi həmin vasitələrlə yerində təmin edilib, 92 işçi isə müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb.

Son illər muxtar respublikada sosial qayğıya ehtiyacı olan insanlara, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərə, xüsusilə də uşaqlara, şəhid ailələrinə, tənha ahıllara göstərilən xidmətlərin həcmi və keyfiyyəti yüksəlir, bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter alır. Ötən il də bu baxımdan uğurlu olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində müvafiq kateqoriyadan olan şəxslər, o cümlədən Vətən müharibəsi iştirakçıları və şəhid ailələri bir sıra dəstək tədbirləri ilə əhatə edilib, onların bütün sosial məsələlərinin həllinə xüsusi həssaslıqla yanaşılıb. Ötən il 28 şəhid və qazi ailələri mənzillərlə, 28 nəfər müvafiq kateqoriyadan olan şəxs isə minik avtomobilləri ilə təmin olunub. Şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən xidmətlərin təşkili, qanunvericilikdə nəzərdə tutulmuş imtiyazlar və müavinətlərin təyini qaydaları, digər zəruri işlərin icrasında operativlik təmin edilib. Vətən müharibəsi qazilərinə sağlamlıq imkanlarının məhdudlaşması ilə bağlı təyinat aparılıb, 62 ailə özünüməşğulluq proqramına cəlb edilib, məşğulluq sahəsində keçirilən digər tədbirlərdə də bu kateqoriyadan olan şəxslərə üstünlük verilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları və yaralananlar üçün yaradılan Psixoloji Dəstək Xidmətində 40-dan çox şəxslə seanslar aparılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 2 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasında şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin işi il ərzində diqqətdə saxlanılıb. Ötən müddət ərzində 124 şəhidin 246 ailə üzvünə müvafiq vəsiqələr verilib, şəhidlərin 283 ailə üzvünə Prezident təqaüdü, 42 uşaq üçün sosial müavinət, 3 nəfərə Vətən Müharibəsi Qəhrəmanı üçün Prezident təqaüdü təyin edilib. Bununla yanaşı, bu sahədə göstərilən xidmətləri əhatə edən elektron baza hazırlanaraq istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli Fərmanı əsasında yaradılan Azərbaycan Respublikasının





ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna könüllü ianələrin ödənişi il ərzində davam etdirilib. Bu gündək fondun vəsaitləri hesabına müvafiq kateqoriyadan olan 24 şəxsin muxtar respublika xaricində müalicə və müayinəsinə kömək göstərilib, 17 nəfərin kredit borcları ödənilib, 35 ailənin isə mənzil şəraiti yaxşılaşdırılıb.



Ümumilikdə, il ərzində müvafiq kateqoriyadan olan 30 minə yaxın muxtar respublika sakininə sosial müavinətlərin ödənişi təmin edilib, tənha yaşayan və hərəkət qabiliyyəti məhdud olan 300-ə yaxın şəxsə evlərində və Ahıllar Evində sosial xidmətlər göstərilib, ahıllara göstərilən xidmətlərdə sosial könüllülərin də iştirakı təmin edilib. Həmçinin əlamətdar günlərdə onlarla görüşlər keçirilib, ehtiyaclarına uyğun sovqatlar təqdim olunub.

Ötən il, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq olunan "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində ümumtəhsil müəssisələrində fiziki imkanları məhdud uşaqların inklüziv tədrisə cəlbi, məktəb mühitinə uyğunlaşması məqsədilə onların tədrisdə qismən iştirakına şərait yaradılıb, təhsildə mütərəqqi üsulların tətbiqi üzrə distant tədris həyata keçirilib. Muxtar respublikada hərəkət qabiliyyəti məhdud uşaqlar üçün təşkil olunmuş distant tədris prosesinin gedişi il ərzində diqqət mərkəzində saxlanılıb və tədrisə yeni cəlb edilən şagirdlər zəruri təhsil ləvazimatları və texniki avadanlıqlarla təmin ediliblər. Cari il ərzində 3 nəfər hərəkət qabiliyyəti məhdud uşaq distant tədrisə cəlb olunub və hazırda Distant Tədris Mərkəzində 15 uşaq, Görmə Qabiliyyəti Məhdud Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə isə 7 uşaq təhsilini davam etdirir. Bununla yanaşı, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində 8 nəfər eşitmə və danışma qabiliyyəti məhdud uşağa distant dərslər keçilməkdədir.

Bununla yanaşı, il ərzində sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə aidiyyəti dövlət orqanları ilə birgə məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində monitorinqlər davam etdirilib, keçirilən tədbirlərdə sağlamlıq imkanları məhdud uşaqların valideynləri, bu kateqoriyadan olan uşaqlara dərsləri tədris edən müəllimlər və məktəb psixoloqlarının iştirakı təmin olunub. Dövlət proqramının icrasına uyğun olaraq müvafiq dövrdə 771 nəfər sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 12 məktəbəqədər müəssisə, 10 məktəbdənkənar müəssisə, 71 ümumtəhsil məktəbi, 2 lisey və 18 musiqi məktəbi olmaqla, ümumilikdə, 113 müəssisədə monitorinqlər təşkil edilib. Təhsilə cəlb olunmuş şagirdlərin maddi təminatının yaxşılaşdırılması məqsədilə sosial qayğıya ehtiyacı olan uşaqlar il ərzində qış geyimləri, məktəbli forma və ləvazimatları ilə təmin ediliblər. Bu məqsədlə sentyabr ayında xüsusi qayğıya ehtiyacı olan 492 nəfər sağlamlıq imkanları məhdud uşağın hər birinə məktəbli geyim dəsti və dərs ləvazimatları, noyabrda isə qış geyimləri verilib.

Sözügedən dövr ərzində sağlamlıq imkanları məhdud şəxslərin tibbi reabilitasiyasının günün tələbləri səviyyəsində təşkili məqsədilə bərpa müəssisələrinin fəaliyyəti davam etdirilib, 20 adda müasir tibbi avadanlıqlar alınıb və müayinə otaqlarında bütün zəruri şərait yaradılıb. İl ərzində bərpa mərkəzlərində 545 nəfərin müalicəsi təşkil edilib, 305 şəxsə protez və ortopedik xidmətlər göstərilib, 716 nəfər reabilitasiya vasitələri ilə təmin olunub. Ötən il ərzində sağlamlıq imkanları məhdud şəxslərə məhdudluq təyinatının aparılması sahəsində də bir sıra yeniliklər həyata keçirilib, bu istiqamətdə şəffaflığın artırılması üçün zəruri tədbirlər görülüb. Bu məqsədlə ilin əvvəlindən Naxçıvan Muxtar Respublikasında Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sisteminin tətbiqinə başlanılıb, bu sahədə vətəndaş-ekspert təması minimuma endirilib.

*Həyata keçirilən bu tədbirlər muxtar respublika sakinlərinin sosial müdafiəsinə göstərilən hərtərəfli dövlət qayğısının tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu sahədə zəruri tədbirlərin icrası cari il ərzində də diqqət mərkəzində saxlanılacaq, bu istiqamətdə müvafiq işlərin həyata keçirilməsi davam etdiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tanınmış baletmeyster Tamerlan Bağırovun 70 illik yubileyi qeyd edilib



*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Prezident mükafatçısı, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının baletmeysteri Tamerlan Bağırovun anadan olmasının 70 illiyi münasibətilə yubiley tədbiri keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov çıxış edərək muxtar respublikanın tanınmış incəsənət adamı Tamerlan Bağırovun uğurlu sənət yolundan danışıb.

Qeyd edilib ki, qədim Naxçıvan torpağı elmə, mədəniyyətə, incəsənətə və ictimai həyatın bir çox sahələrinə istedadlı insanlar bəxş edib. Belə insanlardan biri də Tamerlan Bağırovdur. O, fəaliyyəti dövründə istər ölkəmizdə, istərsə də bir sıra Avropa və Orta Asiya ölkələrində qastrol səfərlərində olub, mədəniyyətimizi, incəsənətimizi çox uğurla təmsil edib.

Vurğulanıb ki, Tamerlan Bağırov indiyə qədər 70-ə yaxın rəqsə quruluş verib. Onun tələbələri indi peşəkar fəaliyyətlə məşğul olur və milli rəqs sənətimizi yaşadır, təbliğ edirlər. Tamerlan Bağırovun göstərdiyi xidmətlər dövlətimiz tərəfindən çox yüksək qiymətləndirilmiş, 2006 və 2019-cu illərdə Prezident mükafatına, 2007-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür. 70 illik yubileyinin qeyd olunması 50 ildən artıq sənət yolu keçən tanınmış sənətkarın fəaliyyətinə göstərilən növbəti dövlət qayğısıdır.

Emin Məmmədov Tamerlan Bağırovu Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından təbrik edib, ona cansağlığı, yaradıcılıq uğurları arzulayıb.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, muxtar respublikamızda rəqs mədəniyyəti çox böyük diqqət və qayğı ilə əhatə olunub və böyük inkişaf yolu keçib. Tamerlan müəllimin ilk dəfə istedadını tanınmış rəqqas Əlibaba Abdullayev kəşf etmiş, "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblına rəqqas kimi dəvət almışdır. İstedadlı baletmeyster ötən əsrin 60-70-ci illərində Naxçıvan şəhərindəki Pionerlər Sarayının Mahnı və Rəqs Ansamblının solisti kimi muxtar respublikada, eləcə də keçmiş Sovetlər Birliyinə daxil olan Ukrayna, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan respublikalarında keçirilən festival və müsabiqələrdə, yubiley tədbirlərində dəfələrlə çıxışlar edib, həm solo, həm də rəqs kollektivlərindəki ifalarına görə mükafatlara, təltiflərə layiq görülüb.

Qeyd edilib ki, Tamerlan Bağırovun Naxçıvan Dövlət Uşaq Filarmoniyasının rəqs ansambılının yaradılmasında, fəaliyyətində, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında opera, operetta və rəqslərin qurulmasında xidmətləri böyükdür. Onun uzun illər çəkdiyi zəhmət, rəqs sənətinin inkişafı naminə göstərdiyi fədakarlıqlar bəhrəsiz qalmayıb, əməyi dövlətimiz tərəfindən ən yüksək səviyyədə qiymətləndirilib.

Sonra muxtar respublikamızın tanınmış mədəniyyət və incəsənət adamları, yubilyarın dostları, tələbələri çıxış edərək Tamerlan Bağırovun fəaliyyətindən ürəkdolusu danışıb, ona cansağlığı və bundan sonrakı fəaliyyətində də uğurlar arzulayıblar.

Tədbirin sonunda Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının baletmeysteri Tamerlan Bağırov çıxış edərək yaradıcılığına göstərilən böyük diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*İqtisadiyyatın dayanıqlı inkişafını və ixracın stimullaşdırılmasını şərtləndirən mühüm məsələlərdən biri keyfiyyət amilidir. Bu baxımdan muxtar respublikada istehsal olunan məhsulların keyfiyyətinə nəzarətin aparılması işi cari ilin yanvar ayında da diqqətdə saxlanılmış, məhsulların 46, o cümlədən qida məhsullarının 39 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.*

## Standartların tələblərinə uyğun məhsul istehsalı təşviq olunur

Qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası istiqamətində ötən ay emal olunmuş kənd təsərrüfatı məhsullarının 9, meyvə-tərəvəz məhsullarının isə 4 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyən olunmuşdur.

Muxtar respublika iqtisadiyyatında ailə təsərrüfatı modelinin dəstəklənməsi işi davam etdirilməkdədir. Ötən ay 7 ailə təsərrüfatı üçün istehsal etdikləri məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılması, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə 12 etiket layihəsi hazırlanmışdır.

Xarici bazarlara çıxış imkanlarının artırılması, xüsusilə diqqət mərkəzindədir. 2017-ci il 25 iyul tarixli beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, qarşıdakı dövrdə bu imkanların bir daha araşdırılması, ixracın coğrafiyasının genişləndirilməsi üçün verilmiş tapşırıqların, Ali Məclis Sədrinin 2020-ci il 6 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmişdir. Xidmətin təşəbbüsü ilə yaradılmış müvafiq sahibkarlıq subyektləri qrupu tərəfindən Bakı şəhəri və digər bölgələrimizə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilmişdir.

Muxtar respublikada istehsal olunan alkoqollu içkilərin keyfiyyətinin diqqətdə saxlanılması üçün 3 müəssisədə istehsal olunan arağın 6, pivənin 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartlara uyğunluğu müəyyənləşdirilmişdir.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə idxal olunan qaz cihazlarına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan cihazların idxalına icazə verilməmişdir.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

*Axtarışlar, tapıntılar*

## Kəngərli sözünün etimologiyası

***Azərbaycan Respublikasının ayrılmaz bir parçası olan doğma Naxçıvanımızın sosial-iqtisadi inkişafını, onun qədim tarixini əks etdirən əsərlərin yazılması həmişə olduğu kimi, indi də dövlət qayğısı ilə əhatə edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə görüşündə muxtar respublikanın rayonlarının tarixinin yazılmasının mühüm vəzifə kimi tədqiqatçılarımızın qarşısında durduğunu bildirmişdir.***

*Şahtaxtının qədim tikintiləri*

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasının ərazisi qədim dövrlərdən müxtəlif mədəniyyətlərin beşiyi olmuşdur. Türk mənşəli tayfalar ta qədimdən bu ərazilərdə məskunlaşmış və ölkəmizin tarixində öz izlərini qoymuşdur. Belə tayfalardan biri də Kəngərli tayfasıdır. Kəngərli tayfalarının tarixi və ölkəmizin ərazisində məskunlaşması ilə bağlı müxtəlif fikirlər irəli sürülmüş və onların başlıca olaraq bizim eranın əvvəllərindən başlayaraq Naxçıvanda məskunlaşması qeyd edilmişdir. Lakin araşdırmalar göstərir ki, bu tayfanın tarixi daha qədim dövrlərə bağlanır. Qeyd edək ki, tədqiqatçılar onların Orta Asiya mənşəli bir xalq olduğunu qəbul etmişlər. Müəyyən edilmişdir ki, "kəngərli" etnonimi Orta Asiyada mövcud olan Kanq dövlətinin adı ilə bağlı olmuşdur. Onlar özlərini "kanqar" adlandırmışlar ki, bu da dəyişilərək "kəngər" şəklinə düşmüşdür. Qədim türk dillərində -ar, -ər sözü igid, döyüşçü, atıcı, ailənin və qəbilənin keşikçisi mənasındadır. Ümumiyyətlə, -ar, -ər söz artımı, yaxud şəkilçisi ilə düzələn tayfa adları türk qəbilələri üçün xarakterikdir. Avar, bolqar, avşar, padar, xəzər, kəngər və başqalarını buna nümunə göstərə bilərik. "Kanq" sözü isə türk dillərində kan-xan sözləri ilə bağlı olub ucalıq, yüksəklik mənasını ifadə edir. Məlum olduğu kimi, bir çox türk dövlətlərində dövlət başçılarına Xan titulu verilmişdir. Maraqlıdır ki, mənbələr kəngərlilərin Kanq əyalətində məskunlaşan basine tayfalarının bir qolu olduğunu qeyd edir. "Basine" sözü türk dillərində "sərkərdə" anlamında da işlədilmiş və onlardan Avropa xalqlarına, daha doğrusu, yunanlara da keçmişdir. Məlum olduğu kimi, yunanlarda hökmdarlar basilevs titulu daşımışdır.



Şahtaxtı boyalı küpəsi

Bəs Kəngərli tayfası ilə bağlı olan Kanq dövlətinin və bu tayfaların tarixi nə vaxtdan başlayır? Tədqiqatçılar Kanq dövlətinin indiki Qazaxıstanın qərbini və Özbəkistanı, o cümlədən Daşkənd, Buxara və Xarəzmi əhatə etdiyini qeyd etmişlər. Kanq dövləti ilə bağlı məlumatlara qədim Çin mənbələrində rast gəlinmişdir. Çin dilinin fonetik xüsusiyyətlərinə uyğun olaraq Kanq dövlətinin adı "Kanqyuy", "Kanszyuy" şəklində xatırlanmışdır. Çin mənbələrinin verdiyi məlumata görə, atlı xalq olan kanqyuylar əkinçilik, üzümçülük və maldarlıqla məşğul olmuşdur. Bu baxımdan çox maraqlıdır ki, Mesopotamiyada formalaşan qədim Şumer dövləti yazılı mənbələrdə "Kiengira" adlanmışdır. Eradan əvvəl III minilliyin sonuna aid kitabədə belə deyilir: "Enlil Qutiumu, dağların zəhərli ilanını, ilahilərin düşmənini, Kİ.EN.Qİ.RA-nın (Şumerin) dövlətçiliyini dağlara aparanı, Kİ.EN.Qİ.RA.-nı düşmənçiliklə dolduranı... yox etməyi Utuheqala ...tapşırdı". Məlum olduğu kimi, şumerlərin türkdilli olduğu bir qrup tədqiqatçı tərəfindən irəli sürülsə də, elmi faktlar siyasi səbəblər üzündən yetərsiz hesab edilmişdir. Lakin Şumerdə türkdilli tayfaların yaşaması heç bir şübhə doğurmur. Bunu şumer dilinin leksik tərkibi də təsdiq edir. Kitabənin mətnindən göründüyü kimi, Şumerin Kiengira adlanması heç bir şübhə doğurmur və kəngərli tayfalarının qədim mədəniyyətlərin beşiyi olan Mesopotamiyanın ilk sakinlərindən olduğunu təsdiq edir. Tədqiqatçılar qədim Mesopotamiya ilə Orta Asiya və Cənubi Qafqaz arasında qədim dövrlərdən iqtisadi-mədəni əlaqələrin olduğunu təsdiqləyir.

Bəzi tarixçilər Kanq dövlətinin Orta Asiyada eradan əvvəl III əsrdə yarandığını qeyd etmişlər. Tarixçi L.A.Borovkova Kanq dövlətinin Sır-Dəryanın orta axarlarında eradan əvvəl I minilliyin ikinci yarısında formalaşdığını qeyd etmişdir. Maraqlıdır ki, IX əsrin ərəb coğrafiyaçısı ibn Xordadbeh Sır-Dərya çayını Kanqar çayı da adlandırmışdır. Bəzi tədqiqatçılar isə Kanq dövlətinin adının eradan əvvəl V əsrin sonunda mövcud olan Kanq qalasının adı ilə bağlı olduğunu söyləmişlər. Qeyd edək ki, bu qalanın adı eradan əvvəl VII əsrə aid edilən Avestada Kanha, eradan əvvəl IV əsrə aid edilən Mahabaratada Kanqi, eramızın VI-I əsrlərinə aid fars mənbələrində Kanqdez şəklində xatırlanmışdır. VIII əsrin əvvəllərinə aid qədim türk yazılı mənbələrində qalanın adı Kanqyu-Tarban və Kanqyuy-Tarband formasında işlədilmişdir. Onu da qeyd edək ki, eradan əvvəl VIII əsrə aid Assur yazılarında Midiya ərazisində xatırlanan Kinqiqiatu, Kinqaraku, Kinqibara və digər toponimlər kanq sözü və kəngərlilərlə bağlıdır.



Yurdçu sərdabəsi

*Şahtaxtı boyalı küpəsi*

Adil Bağırov "Kitabi-Dədə Qorqud" dastanında "kəngərli" sözünün qanlı kimi xatırlandığını qeyd etmişdir. Məlum olduğu kimi, dastanda "Qanlı Qoca oğlu Qanturalı" boyu vardır. Bu boy Kanqlı Qoca oğlu Qanturalının adı ilə bağlıdır. Dastanda, həmçinin Pasin və Basen yer adlarından bəhs edilmişdir. Gürcü mənbələrində türkdilli bolqarların yaşadığı bölgə Basiani adlandırılmışdır. Kəngərlilərin adı Orxon yazılarında Gül Tiginin şərəfinə yonulmuş abidədə 712–713-cü illər döyüşləri ilə bağlı olaraq Kəngərəs şəklində çəkilmişdir. Tədqiqatçı-alim Adil Bağırovun fikrinə görə, Kəngərli tayfası Naxçıvan Muxtar Respublikasının müxtəlif kəndlərində yaşamışlar. İ. Şopen kəngərlilərin 33 qol və tirəsini qeydə almışdı: Yurçi, Qızıllı, Sarbanlar, Xalxallı, Pirhəsənli, Salahi, Ağabəyli, Həmayi, Qarabəylər, Cağatay, Qaraxan, Hacılar, Cəmşidli, Billici, Qızılqışlaq, Tutlar, Qaradolaq, Şabanlı, Kəlfir, Arabsaklı, Qaracalı, Qraahasarlı, Pənahlı, Əlxanlı, Sofulu, Beqdili, Əliəkbərli, Didavarlı, Bolqarlı, Qürdmahmudlu, Əliyanlı, Ziyadlı və Bərgüşadlı.

Araşdırmalar kəngərli və peçeneqlərin eyni kökdən olduğu, daha sonra isə onların hun tayfa birliyinə daxil olduğunu və mənbələrdə müxtəlif şəkildə xatırlandığını göstərir. Mənbələrdə basine, pasine, paçana, beçene, peçeneq kimi xatırlanan bu tayfalar sak-skif tayfalarının bir qolu olmuşdur. I əsr müəllifi Strabon Xəzər dənizindən şərqdə yaşayan tayfa ittifaqını Pasian kimi xatırlamışdır. M.İ.Artamanovun fikrinə görə isə Cənub-Şərqi Avropada yaşayan peçeneqlərin əsl adı Kəngər idi. Kəngərli, yaxud Kəngər yer adlarına Azərbaycanın müxtəlif rayonlarında, İran, Türkiyə, indiki Ermənistan və Gürcüstan ərazisində də rast gəlinmişdir. Ehtimal ki, Türkiyədə, Ərzurum yaxınlığındakı Pasinlərin adı da bu tayfalarla bağlıdır. Məlum olduğu kimi, İran körfəzi tarixdə müxtəlif adlarla tanınmışdır ki, bu adlardan biri də Kəngər körfəsi olmuşdur. Bu faktlar hələ eradan əvvəl I minillikdə kəngərlilərin Yaxın Şərqdə böyük bir coğrafiyada məskunlaşdığını təsdiq edir. Təsadüfi deyil ki, Mahmud Qaşqarlının "Divani-lüğətit-türk" əsərində peçeneqlərin-kəngərlilərin Ruma (Bizansa) yaxın bir ərazidə məskunlaşan türk tayfası olduğu yazılmışdır.

*Yurdçu sərdabəsi*



Şahtaxtının qədim tikintiləri

Faktları ümumiləşdirərək deyə bilərik ki, eradan əvvəl I minillikdə Orta Asiyadan başlayaraq Yaxın Şərqədək geniş bir coğrafiyada mövcud olan Kəngərli tayfaları Qafqaza və Ön Asiyaya yürüş edən müxtəlif tayfaların, o cümlədən kimmerlərin, skiflərin, hunların, xəzərlərin, səlcuqların tərkibində Azərbaycanda, o cümlədən Naxçıvanda geniş şəkildə məskunlaşmışlar. Naxçıvanda məskunlaşan kəngərlilər müxtəlif dövrlərdə, xüsusilə Səfəvilər dövründə və xanlıqlar zamanında bölgənin sosial-iqtisadi və siyasi həyatında fəal iştirak etmiş, Naxçıvanın xarici işğalçılardan müdafiə edilməsində və müstəqilliyinin qorunmasında böyük rol oynamışlar. Kəngərli eli Azərbaycanın, o cümlədən Naxçıvanın taleyüklü məsələlərində mühüm rol oynayan görkəmli siyasi xadimlərin, təhsil, elm və mədəniyyət xadimlərinin Vətənidir.

Ümid edirik ki, gələcək araşdırmalarımız zamanı Kəngərli elinin tarixi ilə bağlı daha da dəyərli faktlar aşkar olunacaqdır.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***



*Turizm sahəsi həm iqtisadi inkişafı təmin edir, həm də yeni iş yerlərinin açılması və beynəlxalq tələblərə uyğun xidmət sferasının formalaşması üçün mühüm vasitədir.*

Dövlət proqramı icra olunur

## Muxtar respublikanın turizm potensialından istifadə diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikasının zəngin təbiəti, qədim tarixi və maddi mədəniyyət abidələri burada turizmin inkişafı üçün geniş imkanlar açır. Bu istiqamətdə irimiqyaslı layihələrin hazırlanaraq həyata keçirilməsi yeni turizm məhsullarının meydana çıxmasına səbəb olur. Digər tərəfdən mövcud tarixi-mədəni abidələrin bərpası və yenidən qurulması ilə bağlı aparılan işlər də olduqca əhəmiyyətlidir. Görülən işlər onu deməyə əsas verir ki, Naxçıvanın turizm potensialından maksimum istifadəyə yönələn tədbirlər ardıcıl şəkildə davam etdirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edilmiş, proqramda nəzərdə tutulan tapşırıqların icrası ötən il də diqqətdə saxlanılmışdır.

Qədim diyarda kənd turizminin inkişafı üçün davamlı tədbirlər həyata keçirilir. Muxtar respublikanın ucqar kəndlərində yaradılan turizm obyektləri bu ərazilərin sosial-iqtisadi inkişafında, kənd əhalisinin məşğulluğunun təmin olunmasında, təbii-iqtisadi imkanlardan geniş istifadə edilməsində əhəmiyyətli rol oynayır. Həyata keçirilən tədbirlərin ən mühüm təzahürlərindən biri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 29 noyabr tarixli Sərəncamı ilə yaradılan Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsidir. Kəndin əlverişli təbii-coğrafi şəraiti nəzərə alınaraq burada kompleks turizm infrastrukturunun tətbiqi uğurlu nəticələrə səbəb olmuşdur. Ötən il fevralın 17-də Ali Məclis Sədrinin iştirakı ilə Ağbulaq Xizək Mərkəzi istifadəyə verilmişdir. Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən mərkəzdə uzunluğu 1580, eni 18-30 metr olan dağ-xizək sahəsi, əyləncə və uşaq parkları, 219 metrlik konveyer xətləri, 20 min kubmetr tutumu olan süni göl yaradılmış, 26 sabit, 3 hərəkətli süni qaryaratma sistemi, 1 motor stansiyası, uzunluğu 980 metr olan kanat quraşdırılmışdır. Kanat yolunda hər biri 4 yerlik olan 59 oturacaq vardır ki, bu da saatda 1000-dən artıq turistə xidmət etməyə imkan verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu gün Azərbaycan dünyada həm də turizm ölkəsi kimi tanınır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası da turizm üçün çox əlverişlidir. Ona görə də muxtar respublikada mövcud imkanlardan səmərəli istifadə olunur, turizm bölgələri yaradılır və kəndlər abadlaşdırılır".***




Turizm sahəsində təbliğatın aparılmasında internet resurslarından geniş istifadə olunması günün reallıqlarındandır. Muxtar respublikada bütün yaşayış məntəqələrinin sürətli internetlə təmin olunması mövcud turizm potensialının təbliği və tanıdılması sahəsində geniş imkanlar açır. Ötən il Dövlət proqramının icrası istiqamətində Ağbulaq Xizək Mərkəzinin tanıdılması ilə bağlı işlər də davam etdirilmiş, Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytında Ağbulaq Xizək Mərkəzinin saytına keçid linki yerləşdirilmişdir. Xizək Mərkəzinin *"skiazerbaijan.com"* platformasına inteqrasiya edilməsi üçün mərkəz haqqında məlumatlar Azərbaycan Turizm Bürosuna göndərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iyulun 13-də Pəzməri şəlaləsinin yerləşdiyi ərazidə olmuş, Anaqut kəndi ərazisində inşa edilən "Xan Çinar" İstirahət Mərkəzində görülən işlərlə maraqlanmışdır. Ali Məclisin Sədri demişdir: ***"Kəndlərdə quruculuq işləri ona görə aparılır ki, insanlar rahat və firavan yaşasınlar. Həyata keçirilən tədbirlər məskunlaşmanı da artıracaqdır. Artıq Pəzməri turistik bölgəyə çevrilir. Kəndə turist axını sakinlərin istehsal etdiyi məhsulların alınmasına da səbəb olacaqdır ki, bu da əhalinin güzəranının daha da yaxşılaşması ilə nəticələnəcəkdir".***

Kənd turizminin inkişafına təkan verən amillərdən biri də bu sahədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasıdır. Ötən il proqramın icrası ilə bağlı bu istiqamətdə görülən işlər də diqqətdə saxlanılmış, "Kiçikhəcmli kənd turizmi" layihəsi hazırlanmışdır. Sahibkarlıq subyektləri ilə 11 mart, 6 may və 24 sentyabr tarixlərdə təşkil olunan görüşlərdə layihənin təqdimatı keçirilmiş, müvafiq sahədə dövlət maliyyə dəstəyi barədə ətraflı məlumat verilmişdir.



Şübhəsiz ki, turizmin inkişafını sürətləndirən ən mühüm vasitələrdən biri təbliğat işinin düzgün qurulmasıdır. Dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq turizm sərgilərinin bu baxımdan böyük əhəmiyyəti vardır. Belə tədbirlər iştirakçı ölkələrə turizm potensialının cəlbediciliyini diqqətə çatdırmaq və qarşılıqlı təbliğat üçün geniş imkanlar açır. Ötən il mart ayında Türkiyənin Antalya şəhərində keçirilən "3-cü Türkiyə Turizm Tədarük Sərgisi"ndə muxtar respublikadan olan sahibkarların iştirakı təmin olunmuşdur. Sərgidə muxtar respublikanın turizm potensialı haqqında ətraflı məlumat verilmiş, çox sayda şirkət nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq haqqında müzakirələr aparılmışdır. Həmçinin sentyabr ayında Rusiyanın Moskva və noyabr ayında Qətərin Doha şəhərlərində təşkil edilən beynəlxalq sərgilərdə "Naxçıvan Muxtar Respublikası" stendi qurulmuş, muxtar respublikada yerləşən tarix-mədəniyyət abidələrinin maketləri, müxtəlif videoçarxlar, hotellər haqqında məlumatlar, "Naxçıvan mətbəxi", "Naxçıvan: Şərqin əfsanəsi", "Naxçıvan: dörd fəsildə" kitabları və yerli istehsal məhsulları nümayiş etdirilmişdir.

Təbliğat işinin digər forması isə çoxsaylı oxucu kütləsinə malik media nümayəndələrinin diqqətini müvafiq turizm bölgəsinə cəlb etməkdir. Müxtəlif televiziya kanallarından qəzetlərə, sosial şəbəkələrdən internet saytlarına qədər geniş bir platformada turizm potensialının təbliği turist cəlbinin başlıca şərtlərindəndir. Bu istiqamətdə 21-22 oktyabr tarixlərdə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi və Turizm Bürosunun əməkdaşları, eləcə də yerli media nümayəndələrinin iştirakı ilə Naxçıvan Muxtar Respublikasına media-tur təşkil olunmuşdur. Media-tur başa çatdıqdan sonra iştirakçılar tərəfindən ölkə səviyyəli kütləvi informasiya vasitələrində və internet resurslarında muxtar respublikanın turizm imkanları ilə bağlı müxtəlif materiallar yayımlanmışdır.

Müxtəlif turizm istiqamətləri haqqında reklam-informasiya materiallarının əlçatan olması turizm bölgəsini cəlbedici edən ilkin faktorlardandır. Bu, turistlər üçün öz səyahət istiqamətlərini öncədən planlaşdırmağa və qısa müddətdə bir çox turizm obyektinə ekskursiya etməyə imkan verir. Ötən il proqramın icrasına uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının 2021-ci il üçün turizm təqvimi" hazırlanmışdır. Bu dövrdə 9 turizm marşrutu üzrə bukletlərin və Naxçıvan Muxtar Respublikasının turist xəritəsinin rus-ingilis dillərində nəşr edilməsində məqsəd daha çox xarici turistin marağını muxtar respublikaya cəlb etmək olmuşdur.

Hazırkı dövrdə dayanıqlı kadr hazırlığı tələb edən sahələrdən biri də turizmdir. Çünki bu sahədə qlobal trendlər böyük sürətlə dəyişir və yenilənir. Müasir tələblərə cavab verən təhsil imkanlarının yaradılması və peşəkar kadrların hazırlanması turizmin inkişafını davamlı edən şərtlərdəndir. Ötən il Turizm agenti ixtisası üzrə nümunəvi dərs cədvəlləri və 4 elektron dərs vəsaiti hazırlanaraq peşə məktəblərinə verilmişdir. Naxçıvan Şəhər Peşə Liseyində 20 müdavimdən ibarət Turizm agenti kursu təşkil olunmuşdur. Kursa cəlb edilən müdavimlərin təcrübə dərslərinin muzeylərdə aparılması, eləcə də onların kurs müddətində muxtar respublikanın tarixi yerləri və turizm məkanlarına ekskursiyalarının təşkili diqqətdə saxlanılmışdır.

Bütün bunlarla yanaşı, yanvar və fevral aylarında Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə keçirilən "Azərbaycanda quş gözləmçiliyi turizmi" mövzusunda onlayn təlimdə Naxçıvan turizm sektorunun nümayəndələri də iştirak etmişdir. Mart ayında muxtar respublikada fəaliyyət göstərən turoperatorların, mehmanxana nümayəndələrinin və turizm könüllülərinin iştirakı ilə "Naxçıvan Muxtar Respublikasında daxili turizmin inkişafı" mövzusunda tədbir keçirilmişdir. İyun-iyul aylarında Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Naxçıvan Muxtar Respublikasında mövcud olan turizm marşrutları üzrə bələdçilərin texniki peşə biliklərinin təkmilləşdirilməsi" təlimi təşkil olunmuşdur. 4 moduldan ibarət olan təlimi uğurla başa vuran iştirakçılara bələdçi şəhadətnamələri və sertifikatları verilmişdir.

Muxtar respublikada turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yaradılan şərait, xidmət səviyyəsinin get-gedə yüksəlməsi qədim diyarın turizm potensialının inkişafı üçün geniş üfüqlər açmaqdadır.

**"Şərq qapısı"**

## Gənc rəssamların hesabat sərgisi və onlara üzvlük vəsiqələrinin təqdimatı olub



*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda birliyin nəzdində yaradılan Gənc rəssamlar bölməsi üzvlərinin hesabat sərgisi və onlara üzvlük vəsiqələrinin təqdimat mərasimi olub.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin nəzdində yaradılan Gənc rəssamlar bölməsinin muxtar respublikada rəssamlıqla məşğul olan gənclərin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Vurğulanıb ki, muxtar respublikamızda digər sənət sahələri kimi rəssamlığın da inkişafına və istedadlı gənclərin rəssam kimi yetişmələrinə böyük qayğı göstərilir, gənc rəssamların fəaliyyəti diqqət mərkəzində saxlanılır, mütəmadi olaraq onların fərdi hesabat sərgiləri təşkil olunur. Sərgilərdə gənclərin maraqlı və cəlbedici əl işləri nümayiş etdirilir.



Tədbirdə Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev, Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov və digərləri çıxış edərək rəsmləri sərgidə yer alan gənc rəssamlar barədə fikirlərini bölüşüb, onlara tövsiyələrini verib, fəaliyyətlərində uğurlar arzulayıblar.

Gənclərə üzvlük vəsiqələri təqdim edildikdən sonra sərgiyə baxış olub. Qeyd edək ki, sərgidə 6 gənc rəssamın dekorativ-tətbiqi sənət, rəngkarlıq, qrafika növlərinə aid mənzərə, natürmort, portret janrlarında müxtəlif mövzularda 41 rəsm əsəri nümayiş etdirilib.

**Aytac CƏFƏRLİ**

## Elmi -Texniki Şuranın iclası keçirilib

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi Elmi-Texniki Şurasının iclası keçirilib.*



İclası giriş sözü ilə şuranın sədri, kənd təsərrüfatı naziri Bəhruz Bayramov açaraq iclasa çıxarılan mövzular haqqında məlumat verib.

Nazirliyin əməkdaşı Elmira Əliyeva "Üzüm bitkisinin xəstəlik və zərərvericilərinə qarşı mübarizə tədbirləri" mövzusunda çıxış edərək vurğulayıb ki, həmin xəstəliklər, əsasən, hava şəraitindən asılı olaraq müxtəlif dərəcədə inkişaf edir. Bu xəstəliklərin qarşısını almaq üçün müxtəlif tədbirlərin həyata keçirilməsinin vacibliyindən danışan məruzəçi nazirlikdə hərtərəfli imkanlar yaradıldığını diqqətə çatdırıb.

Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin elmi işçisi Simuzər Həsənova "Üzvi gübrələr, onların növləri və səmərəli istifadəsi" mövzusunda çıxış edib. O bildirib ki, kənd təsərrüfatı bitkilərindən yüksək məhsul əldə etmək və torpağın münbitliyini artırmaq üçün aqrotexniki sistemlər içərisində gübrələrdən istifadə tədbirləri ən vacib yerlərdən birini tutur. Gübrələrdən səmərəli istifadə bitkilərdə şəkərin, nişastanın, yağların, zülalların və vitaminlərin miqdarını artırır.

Sonda mövzular geniş şəkildə müzakirə edilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## *"Sterilizasiya işinin təşkili"* mövzusunda kurs təşkil edilib



*Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzində muxtar respublikanın orta tibb işçilərinə "Sterilizasiya işinin təşkili" mövzusunda kurs keçilib.*

Tədbirdə mərkəzin həkim-laborantı Gültəkin Mərdanova sterilizasiya və onun növləri haqqında məlumat verib. Bildirib ki, iltihab prosesləri xəstəni əhatə edən əşyalardan, havadan, yara ilə təmasda olan ləvazimatlardan və başqa mənbələrdən həmin nahiyəyə düşmüş bakteriyaların fəaliyyəti sayəsində törənir. Bunun üçün tibbi alətlərin sterilliyi əsas götürülür. Bu tədbirlərə palataların və cərrahiyyə əməliyyatı otaqlarının havasının, divar, döşəmə və tavanın təmiz saxlanması, həkim və tibb işçilərinin təmizliyi, eləcə də tibbi alətlərin, sarğı materiallarının, şpris və iynələrin sterilizasiyası aiddir. Vurğulanıb ki, kursu təşkil etməkdə məqsəd orta tibb işçilərini maarifləndirmək, onlara tibbi təhlükəsizlik tədbirlərinə düzgün əməl etməyi aşılamaqdır.

Çıxış videogörüntülərlə müşayiət olunub, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



***Çox qədim və zəngin tarixə malik ulu diyarımızın ərazisində yaşayan əcdadlarımız ibtidai dövrlərdən müxtəlif rəqs elementləri ilə yadda qalmış, müxtəlif piktoqrafik işarələrdə bu sistemin izlərini tarixin yaddaşına yazaraq günümüzədək gəlib çıxmasına nail olmuşlar. Son illərdə muxtar respublikamızda aparılan çöl tədqiqatları, arxeoloji araşdırmalar Ordubad rayonu ərazisindəki Gəmiqaya daşları üzərində də Qobustan qayaüstü rəsmlərindəki yallı təsvirlərinin olduğunu elmi dəlillərlə ortaya qoymuşdur. Bəşəriyyətin ikinci atası Nuh Peyğəmbərin quruya ayaq basdığı yer olmasına dayanaraq Gəmiqaya daşlarındakı rəsmlərin Qobustan qayaüstü təsvirlərindən daha qədim olduğunu deməyə əsas verir. Bu da o deməkdir ki, ən qədim insanlar, ulu əcdadlarımız öz yaşayış tərzlərini, düşüncələrini, ilkin inamlarını əks etdirdikləri bu daşlar üzərində rəqslərini də canlandırmışlar.***

*Yeni nəşrlər*

## Naxçıvanın halay və yallıları ilk dəfə kompleks tədqiqat işığında

Belə bir tarixi keçmişə malik olan yallı və halayların araşdırılması həm də xalqımızın minillliklərə dayanan mədəniyyətinin bir parçasının öyrənilməsiylə nəticələnmişdir. Bu yaxınlarda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çapdan çıxan "Naxçıvan halay və yallıları: tarixi, mənşəyi və fəlsəfi anlamı" monoqrafiyası da məhz, bu mənada, olduqca qiymətli və dəyərli tədqiqat əsəridir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərovanın ötən il apardığı tədqiqatların uğurlu yekunu kimi elmi ictimaiyyətə, həmçinin geniş oxucu kütləsinə təqdim etdiyi monoqrafiya elmi tutumu, yeni məlumat zənginliyi ilə seçilir. Monoqrafiya haqqında fikirlərimizə keçməzdən əvvəl bir neçə məqama toxunmaq mütləq lazımdır. Belə ki, tarixdən üzübəri yallıların yarandığı ilkin məskən kimi bilinən və qəbul edilən Naxçıvan ərazisi, xüsusilə Şərur diyarı olmuşdur. Bunun nəticəsidir ki, Şərurda Xalq Yallı Ansamblı fəaliyyət göstərir. Onlar yallılarımızı onilliklərdir, dünyanın müxtəlif ölkələrində təbliğ edirlər. Bu sahədə dövlətimiz tərəfindən də bir çox işlər görülmüşdür. Belə işlərin uğurlu nəticələrindən biri də odur ki, yallı sənəti YUNESKO səviyyəsində də diqqəti cəlb etmiş və 2018-ci ildə "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvan yallı sənəti haqqında məlumatlar toplanaraq həmin beynəlxalq quruma təqdim olunmuşdur. Nəticədə də, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir.

Yallıların qorunması, təbliği, öyrənilməsi barədə də mühüm bununla yekunlaşmır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il 24 dekabr tarixdə "Şərur yallıları haqqında" Sərəncam imzalamışdır. Həmin Sərəncamda Azərbaycan türklərinin qədim mədəniyyətinin bir hissəsi olan Şərur yallılarının xoreoqrafiya, instrumental və vokal musiqini özündə birləşdirən nadir yaradıcılıq nümunəsi, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahürü olduğu vurğulanır, yallıların Gəmiqaya təsvirlərində öz əksini tapmasının Naxçıvanda yallı sənətinin çox qədim tarixə malik olduğundan bəhs edilir. Sərəncamda qeyd olunan məqamlardan biri də belədir: "Əshabi-Kəhf və Gəmiqaya kimi, Şərur yallıları da Naxçıvanın incisi, xalqımızın tarixi yaddaşının və milli dəyərlər sisteminin ayrılmaz tərkib hissəsidir". Bu dəyərlər sisteminin ayrılmaz tərkib hissəsi olan yallıların tədqiqi, təbliği və qorunması Sərəncamda, xüsusilə vurğulanır. Bununla əlaqədar "Tədbirlər Planı" təsdiq edilməsinə göstəriş verilir.

Haqqında danışacağımız monoqrafiya məhz həmin Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində görülmüş işlərdən biridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun 2021-ci il üçün iş planına əsasən nəşr olunan monoqrafiyanın elmi redaktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Əziz Ələkbərlidir. AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru Əbülfəz Quliyev, sənətşünaslıq elmləri doktoru, professor Rafiq İmrani, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov və filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarovun rəy verdiyi monoqrafiya iki fəsildən – nəticə və ədəbiyyat siyahısından ibarətdir. Kitaba ön söz yazan elmi redaktor Əziz Ələkbərlinin də qeyd etdiyi kimi "halay və yallılar müxtəlif zamanlarda müxtəlif tədqiqatçıların diqqətini cəlb etsə də, bu barədə ayrı-ayrı kitablarda, elmi jurnallarda, folklor və mədəniyyətlə bağlı müxtəlif toplularda maraqlı fikirlər söylənilsə də, hələ də bu qədim mədəniyyət növü haqqında ətraflı elmi-nəzəri məlumat verilməmiş, həm də folklor hadisəsi olaraq halay və yallıların xalq mərasimlərində yeri və funksiyası barədə əhatəli tədqiqat aparılmamışdır". Ə.Ələkbərlinin bu fikirlərinə əsaslanaraq əminliklə söyləmək mümkündür ki, A.Cəfərova ilk dəfə məhz bu cür məsuliyyətli və zəhmətli işi öhdəsinə götürmüş və onu uğurla yekunlaşdırmağa nail olmuşdur. Müəllifin özünün giriş hissədə qeyd etdiyi kimi "halay və yallı rəqsləri Azərbaycanın, xüsusilə Naxçıvan Muxtar Respublikasının milli-mənəvi sərvətlərinin şah əsəridir. Bu unikal rəqs janrları özündə təkcə Azərbaycanın deyil, eyni zamanda böyük Türk dünyasının etnik-mədəni sisteminin təzahürü olan prototürklərin milli dəyərlərini minillər ərzində qoruyub saxlamaqla ilk insan həyatının etik və estetik tərzi haqqında informasiyanı müasir dövrümüzə qədər yaşadan sənət abidələridir".

Monoqrafiyanın ilk fəsli "Naxçıvanda milli mədəniyyətin formalaşmasında folklorun və xalq rəqslərinin rolu" adlanır. Adından da göründüyü kimi, bu fəsildə xalqımızın söz yaddaşına müraciət edilmiş, folklor mətnlərində yer alan yallı və halaylarla bağlı məqamlara nəzər yetirilmiş, şifahi söz yaddaşı ilə ritmik hərəkət elementləri arasında paralelliklər aparılaraq araşdırmalar həyata keçirilmişdir. Həmçinin bəzi rəqslərimizdə istifadə olunan folklor nümunələrinin fəlsəfi-mənəvi mahiyyətinə diqqət çəkilmişdir. Bütün bu məsələlər fəsil daxili yarımfəsillərdə ayrıca öyrənilərək elmi nəticələrə gəlinmişdir.

Monoqrafiyanın ikinci fəsli "Halay-yallı rəqslərinin tarixi, mənşəyi və fəlsəfi mahiyyəti" adlanır. Bu fəsildə daha geniş tədqiqatlar öz əksini tapmışdır. Yallı və halayların istər tarixi, istər mənşəyi, istərsə də fəlsəfi mahiyyəti əhatəli və müqayisəli tədqiqatlarla təqdim edilmişdir. Müəllifin elmi yanaşmaları yarımfəsillərdən daha aydın nəzərə çarpır. Bu fəsildə beş yarımfəsildə yallı və halaylar öyrənilmiş, müvafiq istiqamətlər üzrə geniş tədqiqatlar aparılmış və uğurlu elmi nəticələr ortaya qoyulmuşdur. Monoqrafiyada, xüsusilə "Halay və yallıların janr və forma xüsusiyyətləri" yarımfəsli bölgədə ta qədimdən bu günədək oynanılan rəqslərin hər biri haqqında ətraflı məlumatların verilməsi ilə diqqəti cəlb edir. Bu yarımfəsildə müəllif hər bir yallı və halayın etimologiyası, ritmik strukturu, tempi, ölçüləri, musiqi xüsusiyyətləri, ayrı-ayrı bölgələrdə hansı adla adlandırılması, hansı bölgədə daha çox yayğın olması barədə geniş məlumat vermişdir. Ümumilikdə, 142 nümunə haqqında bu cür məlumatları toplamaq, tədqiq və təqdim etmək müəllifin gərgin zəhmətinin və yorulmaz tədqiqatçılıq bacarığının göstəricisidir.

Yallı rəqslərindən fraqmentlərin yer aldığı bir çox rəngli fotoşəkillərin də verildiyi monoqrafiya müəllifin gəldiyi bitkin nəticələrlə yekunlaşır. İstər hər yarımfəsil sonunda əldə olunmuş qənaətlər, istərsə də monoqrafiyanın ümumi sonluğunda verilmiş nəticədən belə bir əminlik formalaşır ki, yallı və halayların ilkin yaranma və digər bölgələrə yayılma yeri Naxçıvan ərazisi olmuşdur. Müxtəlif ayin və mərasimlərdə icra olunan bu rəqslər türkmənşəli xalqların özünəməxsus ilkin düşüncə sistemini hifz edərək gələcək nəsillərə daşıyır. Beləliklə də, yallı və halaylar öz icra-ifa tərzi ilə qədim düşüncə faktının mədəniyyət aktına çevrilməsi fəlsəfəsini də təsdiq etmiş olur.

Halay və yallıların başəri əhəmiyyəti barədəki fikirlərinin yekununda isə Aytən Cəfərova bildirir ki, bu rəqs janrları tarixin sonrakı mərhələlərində Qafqazın, Orta Asiyanın və Şərqi Anadolunun, İranın, Suriyanın və İraqın, o cümlədən bir çox Avropa xalqlarının milli rəqs sənətinə də təsirsiz ötüşməmiş, onlara da sirayət etmişdir. Bu da Naxçıvan yallılarının beynəlxalq status qazanmasına öz təsirini göstərməklə yanaşı, ona bəraət də qazandırmışdır.

Ümumilikdə, yüzdən çox ədəbiyyata müraciət edən müəllifin ortaya qoyduğu "Naxçıvan halay və yallıları: tarixi, mənşəyi və fəlsəfi anlamı" monoqrafiyası bu sahədə aparılmış ilk sistemli tədqiqat əsəri olmaqla yanaşı, bundan sonrakı mərhələdə bu istiqamətdə aparılacaq genişmiqyaslı araşdırmalara da kömək edən ən ciddi və ən sanballı mənbə olacaqdır. Bu təkcə müəllifin uğuru kimi qiymətləndirilməməlidir. Bu həm də, ümumilikdə, milli mədəniyyətimizin, rəqs-musiqi-söz sənəti üçlüyündən ortaya çıxan yallı və halaylarımızın, bu sahəyə böyük diqqət ayıran dövlətimizin, göstərilən diqqət və qayğının müqabilində Naxçıvan elminin nailiyyətidir. Bu münasibətlə müəllifi təbrik edir, ona elmi fəaliyyətində uğurlar arzulayırıq.

**Elxan YURDOĞLU**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Sadiq Məmmədovdan parlaq qələbə



*Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatı davam edir.*

Dünən 7-ci turun oyunları keçirilib. Bu turda naxçıvanlı şahmatçılar beynəlxalq usta Pərviz Qasımov (2379) beynəlxalq usta Toğrul Həsənzadə (2292) ilə qarşılaşıb və məğlub olub. Beynəlxalq usta Talıb Babayev (2256) FIDE ustası Vüqar Manafovla (2299) görüşdə eyni aqibətlə üzləşib. Qrossmeyster Urfan Sevdimalıyev (2359) FIDE ustası Şiroğlan Talıbovun (2307) müqavimətini qıra bilməyib. FIDE ustası Sadiq Məmmədov (2220) isə qrossmeyster Fərid Abbasov (2527) üzərində parlaq qələbə qazanıb.

Bu turda lider qrossmeyster Vasif Durarbəylinin (2615) məğlubiyyəti ilə yadda qalıb. Belə ki, o, qrossmeyster Aydın Süleymanlı (2530) ilə görüşdə məğlub olub. Qrossmeyster Misrətdin İsgəndərov (2566) beynəlxalq usta Murad İbrahimli (2418), qrossmeyster Nicat Məmmədov (2604) FIDE ustası Uğur İlyaslı (2310), qrossmeyster Eltac Səfərli (2597) isə FIDE ustası Zaur Bayramov ilə (2357) görüşdə "ağqara" taxtanı qalib tərk ediblər.

FIDE ustası Xəzər Babazadə (2427) beynəlxalq usta Məhəmməd Muradlıdan (2528), beynəlxalq usta Əhməd Əhmədzadə (2467) isə beynəlxalq usta İsmayıl Şahəliyevdən (2380) üstün olub. FIDE ustası Atilla Eynullayev (2324) FIDE ustası Elvin Bayramovla (2280) görüşdə aktivinə növbəti bir xalı yazdırıb. FIDE ustası Fərid Mustafayev (2322) FIDE ustası Elmar Atakişiyevlə (2240) xalları yarı bölüb.

Hazırda turnir cədvəlinə 5,5 xalla Misrətdin İsgəndərov və Aydın Süleymanlı başçılıq edirlər.

Qeyd edək ki, birinci mərhələ İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq. İlkin mərhələdə 1-4-cü yerləri tutan şahmatçılar 2-ci mərhələdə play-off sistemi üzrə yarımfinal (I-IV, II-III) və finalda ölkə çempionunu müəyyən edəcəklər.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan idmançıları respublika turnirlərində 10 medal qazanıblar



*Ağdaş Olimpiya İdman Kompleksində Vətən müharibəsi şəhidlərinə həsr edilən uşu üzrə "Dəmir yumruq-4" respublika turniri keçirilib. Yarışa müxtəlif bölgələrdən 150-yə yaxın yeniyetmə və gənc idmançı qatılıb.*

Naxçıvan Kikboksinq Federasiyasının idmançıları da medallar uğrunda mübarizə aparıblar. Belə ki, muxtar respublikamız turnirdə məşqçi Kamaddin Rzayevin rəhbərlik etdiyi "Şimşək" komandası ilə təmsil olunub. İdmançılarımızdan Fərişad Süleymanov, Miryusif Seyidov və Adəm Əsgərov qızıl medala sahib çıxıblar. Məhərrəm Abbaslı, Turqay Həsənli, Əli Nəsrullayev isə gümüş medalçı olublar. Bu nəticələrlə "Şimşək" turniri komanda hesabında üçüncü sırada bitirib.

Bundan əlavə, idmançılarımız Ağdaşda kikboksinq üzrə respublika turnirində də iştirak ediblər. Nəticələrə gəlincə, Əli Nəsrullayev ilə Fərişad Süleymanov qalib olub, Məhərrəm Abbaslı və Turqay Həsənli isə müvafiq olaraq ikinci, üçüncü yerlərə layiq görülüblər.

İdmançılar diplom və medalla təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
### *aşağıdakı obyektlərin tikintisi üzrə təkliflər sorğusu elan edir*

1. Şərur rayonunun Həmzəli kəndində 198 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.
2. Şərur rayonunun Vərməziyar kəndində 414 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.
3. Şərur rayonunun Alışar kəndində 342 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.
4. Babək rayonunda məktəbdənkənar təhsil müəssisələri üçün binanın tikintisi.
5. Babək rayonunun Nehrəm qəsəbəsində 3 nömrəli 828 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.
6. Babək rayonunun Vayxır kəndində 378 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.
7. Ordubad rayonunun Azadkənd kəndində 270 şagird yerlik tam orta məktəb binasının tikintisi.
8. Ordubad rayonunun Kələki kəndində 88 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması.
9. Şahbuz rayonunda məktəbdənkənar təhsil müəssisələri üçün binanın tikintisi.

***Təkliflər sorğusunun əsas şərtləri:***

– Görüləcək işlərin minimum dəyəri və qısa vaxt əsas meyardır.

– İddiaçının analoji işlərdə təcrübəsi, işin təşkili (kadr potensialı və tikinti texnikası haqqında məlumat) və onların maliyyə vəziyyəti əsas götürülür.

– İddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aşağıda qeyd olunmuş hesabına 100 manat məbləğində iştirak haqqı keçirməlidirlər.

***Bankın rekvizitləri:***

Kapital Bank Naxçıvan Muxtar Respublikası Baş İdarəsi
Bank kodu: 200015
VÖEN: 9900003611
Müxbir hesab:
AZ37NABZ01350100000000001944
SWİT BİK: AIIBAZ2X

***Komitənin rekvizitləri:***

Hesablaşma hesabı:
AZ84AIIB33040019443100257500
VÖEN: 0200005051

İddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən müvafiq sənədləri 17 fevral 2022-ci il tarixədək ala bilərlər (Nizami küçəsi 30)

Təkliflər sorğusu sənədlərinə aşağıdakı ardıcıllıqla göstərilən tarixlərdə baxılacaqdır:

1. Şərur rayonunun Həmzəli kəndində 198 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması 28 fevral 2022-ci il saat $10^{00}$
2. Şərur rayonunun Vərməziyar kəndində 414 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması 28 fevral 2022-ci il saat $12^{00}$
3. Şərur rayonunun Alışar kəndində 342 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması 2 mart 2022-ci il saat $10^{00}$
4. Babək rayonunda məktəbdənkənar təhsil müəssisələri üçün binanın tikintisi 2 mart 2022-ci il saat $12^{00}$
5. Babək rayonunun Nehrəm qəsəbəsində 3 nömrəli 828 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması 4 mart 2022-ci il saat $10^{00}$
6. Babək rayonunun Vayxır kəndində 378 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması 4 mart 2022-ci il saat $12^{00}$
7. Ordubad rayonunun Azadkənd kəndində 270 şagird yerlik tam orta məktəb binasının tikintisi 7 mart 2022-ci il saat $10^{00}$
8. Ordubad rayonunun Kələki kəndində 88 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması 7 mart 2022-ci il saat $12^{00}$
9. Şahbuz rayonunda məktəbdənkənar təhsil müəssisələri üçün binanın tikintisi 9 mart 2022-ci il saat $10^{00}$

Təkliflər sorğusu ilə əlaqədar məlumat almaq üçün maraqlı olan təşkilatlar Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müraciət edə bilərlər.

***Əlaqə telefonu: 545-02-28***

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

***Ünvan:*** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
***Telefonlar:*** *Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ramiyyə Əkbərova**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 141**